*Metafizika jurnalı* *p-ISSN 2616-6879*
*2021, cild 4, say 2, sıra 14* *e-ISSN 2617-751X*

**UOT 159.9.**
**KBT 88.53**

**Zeynəb HƏCƏMOVA***
*(Azərbaycan)*

*AMEA, Fəlsəfə və Sosiologiya İnstitutu*

# Sosial qavrayış və qarşılıqlı təsirin emosional zəka ilə əlaqəsinin sosial-psixoloji təhlili

***Xülasə***

Şəxsiyyətlərarası münasibətlərdə sosial qavrayış bir insanın digər insan tərəfindən qavranılması, anlaşılması və dəyərləndirilməsi kimi qəbul edilir. Şəxsiyyətlərarası sosial qavrayışın ən vacib xüsusiyyətlərindən biri, insanın sosial keyfiyyətlərinin digər insanlarla qurduğu münasibətin fonunda öyrənilməsindən ibarətdir. Şəxsiyyətlərarası sosial qavrayış bir növ sosial dəyərləndirmə rolunu da oynayır. Sosial qavrayış yalnız mövcud şəxsiyyətlərarası münasibətləri əks etdirmir, o həm də bu münasibətlərdə baş verə biləcək dəyişiklikləri də nizamlayır. Belə bir nizamlayıcı təsir intellektual səviyyənin imkanları ilə uzlaşdıqda qavrayış hərəkətlərinin müsbət perspektivləri özünü biruzə verir. Bundan başqa belə bir sosial qavrayış hərəkətləri şəxsiyyətlərarası münasibətlərdəki mövcud zəruri şərtlərə və vəzifələrə uyğun formaya keçid alır.

Şəxsiyyətlərarası sosial qavrayış quruluşca 3 təbəqədən ibarət strukturu xatırladır. Bu struktura şəxsiyyətlərarası sosial qavrayışın *ümumi məzmunu, sosial qavrayışın obyekti* və şəxsiyyətlərarası qavrayışın *proses olaraq özü*. Bu komponentlərin özü də iki mərhələni əhatə edir: *fiziki* və *sosial mərhələ*. Sosial mərhələ xarici meyarları – (rol gözləmələri, şəxsiyyətlərarası münasibətlərin özü) və daxili meyarları – (şəxsiyyət meyilləri, insanın təlabatları, motiv və s.). əhatə edir. Bundan

* Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İnstitutu
e-mail: hecemova7@gmail.com
https://orcid.org/0000-0001-5886-0984

başqa, sosial qavrayış emosional və zehni tərəflərə də malikdir ki, insan hökm verərkən və ya qərar qəbul edərkən bu mexanizm hərəkətə keçir. Məhz bu meyart *fiziki mərhələ*nin əsas xüsusiyyəti hesab olunur. Sosial qavrayışın emosional intellekt ilə qarşılıqlı şəkildə öyrənilməsi fəaliyyətin prinsipcə fərqli inkişaf tərəflərini də şərh edir. İnsanların qavranılması seçici münasibətin nəticəsidir. Bu seçicilik sabitlik, təsdiqləyici xarakter də daşıyır və insanın daxili dünyası ilə sıx əlaqədardır. Bu baxımdan insanın emosional zəkasının sosial qavrayışa təsir gücü olduqca geniş çevrəni əhatə edir.

***Açar sözlər:*** sosial qavrayış, qarşılıqlı təsir; emosional zəka, şəxsiyyətlərarası münasibətlər; mexanizm;

## *Giriş*

Şəxsiyyətlərarası sosial qavrayış olduqca çoxsahəli sferanı əhatə edir. Bu zaman psixoloji məqamlarla bərabər həm də sosioloji, fizioloji və bioloji amillər də nəzərə alınır. Sosial qavrayışın emosional tərəfləri olduğu kimi zehni tərəfləri də vardır. Aparılan araşdırmalar zamanı sosial qavrayışın dünyagörüşü ilə əlaqəsi tədqiq edilmiş və məlum olmuşdur ki, intellektual imkanları yüksək olan insanlarda sosial qavrayış da adekvat çalarlara malik olur və cəmiyyətin psixo-sosial inkişafına təkan verir. Bəs sosial qavrayışın zehni qabiliyyətlə əlaqəsi nədən ibarətdir? Zehni davranış və ya intellektual davranış sosial qavrayışla qarşılıqlı təsirə nə kimi təsir göstərir? Növbəti mərhələdə bu suallara cavab axtarmağa çalışacağıq. Sözü gedən mövzuda tədqiqat aparılarkən insanın insan tərəfindən qavranılmasında və qarşılıqlı təsirin icrasında emosional zəkanın rolunun nəzəri imkanları araşdırılmışdır. İnsanın insan tərəfindən qavranılması və anlaşılması sosial qavrayışın mühüm tərkib hissəsi olduğu kimi emosional zəkanın da mexanizmlərinə aiddir.

Qeyd edilən mövzu ətrafında olduqca geniş auditoriya toplaya bilmiş və bir sıra alimlər tərəfindən araşdırılmışdır. Məşhur rus psixoloqu A.A.Bodalev (1982) sosial qavrayışın bir şəxsin digər şəxs tərəfindən birbaşa əyani-məcazi əks olunması vasitəsi olduğunu qeyd edirdi. O, həmçinin qeyd edirdi ki, sosial qavrayış fərdlərarası konsepsiya və ya düşüncə tərzi rolunu oynayır. İnsan şüurlu sürətdə düşünür və düşündüyünü qərar olaraq şərh edir. Bu qərarlar insanın sonrakı ünsiyyət və münasibət obyektinə çevrilərək onun tərzini formalaşdırır. Bu baxımdan sosial qavrayış insanın dərketməsi, xarakteri, ünsiyyət bacarıqları, əhval-ruhiyyəsi, zehni qabiliyyəti, intellektual

imkanları və nəticədə bütünlükdə şəxsi və əmək fəaliyyətini tənzimləyən mexanizm olaraq ümumiləşdirilir.

Sosial qavrayış insanlar tərəfindən sosial obyektlərin qavranılması, həmçinin özləri, digər insanlar, qruplar və sosial icmalar tərəfindən başa düşülməsi və qiymətləndirilməsidir. "*Sosial qavrayış*" termini J.Bruner tərəfindən 1947-ci ildə yeni bir qavrayış görüşünün inkişafı zamanı tətbiq edilmişdir. Başlanğıcda sosial qavrayış, qavrayış proseslərinin sosial təyini kimi başa düşülürdü. Daha sonra tədqiqatçılar bu termini digər insanların, sosial qrupların, böyük sosial icmaların mənasını verən sosial obyektlərin qavrama prosesinə istinad etmək üçün istifadə etməyə başladılar [10].

**Sosial qavrayışın işləmə mexanizmləri**

Sosial qavrayışın əsas mexanizmləri, yəni insanların bir-birilərini qarşılıqlı olaraq anlaması, interpretasiyası və dəyərləndirməsi müxtəlif üsullarla səciyyələnir:

1. Obyektə məxsus xarici görünüş və davranış reaksiyalarının qavranılaraq qərar qəbul edilməsi;
2. Sosial qavrayışın empatiya, inikas, mənsubluq, identikləşdirmə və stereotipləşdirmə xüsusiyyətlərinə əsaslanması.

Sosial qavrayış hər bir insanın şəxsi həyatında olduğu kimi işgüzar fəaliyyətində də mühüm rol oynayır. Sosial qavrayış insan zəkasının emosiyaları ilə uzlaşmasıdır. Bu baxımdan sosial qavrayış emosional intellekt ilə oxşar cəhətlərə malikdir.

Sosial qavrayış bir-birilə əlaqəli olan 3 mərhələdən ibarətdir:

- insanların şəxsi və digərlərinə məxsus olan davranışları müşahidə etməsi və onların səbəbləri ilə əlaqədar düşüncələrini şərh etməsi;
- bu şərhlərin nəticəsi olaraq müəyyən qərarların (və ya hökmlərin) qəbul edilməsi;
- qəbul edilən qərarlar (və ya hökmlər) vasitəsilə yekun təəssüratların əldə edilməsi.

Bu proseslər ətraf mühitdən, resipientin şəxsi keyfiyyətlərindən və qavranılanla qavrayanın bir-birinə göstərdiyi şəxsi qarşılıqlı təsirdən asılı olaraq dəyişir.

Sosial qavrayışın emosional zəka ilə əlaqəsini şərh etmək məqsədilə aşağıdakı bəzi suallara cavab tapmağa çalışaq:

1. Eyni şərtlər altında fərqli davranış nümayiş etdirən şəxslərin davranış xüsusiyyətlərinin səbəbləri nədən ibarətdir?
2. Şəxslərə məxsus olan fərdi-psixoloji xüsusiyyətlərin mahiyyətini necə qavrayırıq?

3. Özündə bir neçə fərdi-psixoloji keyfiyyətləri birləşdirən insanları necə qavrayırıq?

- Məlumdur ki, emosional zəka insanın davranışlarını tənzimləyən bir mexanizmdir. Sosial qavrayış isə emosiya və zəka ilə tənzimlənən proses olaraq insanın ətrafdakı digər insanlar, cism və hadisələr barədə qəbul etdiyi hökmlərdir ki, bu hökmlər də gizli (insan düşündüyünü dilə gətirməyə bilər) və aşkar (insan öz düşüncələrini paylaşa bilər) şəkildə təzahür edir. Tədqiqat işinin gedişatı ilə əlaqədar aparılan çoxsaylı müşahidələr nəticəsində məlum olmuşdur ki, eyni şərtlər altında müxtəlif cür davranış nümayiş etdirən insanları bir-birindən fərqləndirən başlıca səbəb həmin insanların *xarakterik xüsusiyyətlərindən* ibarətdir.
- Hər bir insan özünün fərdi-psixoloji xüsusiyyətlərinə görə fərqlənir və bu xüsusiyyətlər insanı digərləri üçün müşahidə hədəfinə çevirir. İnsan mühitdən asılı olaraq fərqli şəkildə davranış nümayiş etdirə bilər və bu insanın yiyələndiyi tərbiyəvi xüsusiyyətlərdən, ömür boyu müşahidə etdiyi, həmçinin hərəkətlərini təqlid etdiyi *insanların qarşılıqlı təsirindən* asılıdır. Belə ki, insan fərdi-psixoloji xüsusiyyətlərinə görə şəxsinə qarşı həm neqativ, həm də pozitiv münasibət əldə edə bilər.
- İnsanın fərdi-psixoloji xüsusiyyətləri, qurduğu dialoqlar, şəxsiyyətlərarası münasibətlərdə nümayiş etdirdiyi davranış elementləri, özünü ifadə tərzi (jestlər, mimika, səs tonu və s.), ünsiyyət üslubu, təlim bacarıqları və s. onun şəxsiyyətindən xəbər verir. Şəxsiyyətlə bərabər sadalananlar ətrafa həm də onun dünyagörüşü ilə əlaqədar siqnallar da ötürür. Belə ki, insanları malik olduqları şəxsi keyfiyyətlərə görə qavramaqla bərabər həm də onlar haqqında müvafiq hökmlər verilir və bu hökmlər qavrayanın qavranılanla şəxsi münasibətindən, qavranılan haqqında qavrayana öncədən verilən informasiyadan, qavrayanın dünyagörüşündən və şəxsi keyfiyyətlərindən (ədalətlik, obyektivlik və s.,) qavrayanın psixoloji sağlamlığından, qavrayanın və qavranılanın həyatda tutduğu sosial mövqedən, qavranılanın fiziki və sosial simasından, qavrayanın emosional zəka səviyyəsindən, qavranılanın sosial imicdən və s., asılıdır.

Qeyd edək ki, qavranılan əşya və ya hadisədirsə, yuxarıda sadalananlar həmin əşyanın məxsus olduğu şəxsin və hadisəni törədənin keyfiyyətləri ilə bərabər səviyyədə ölçülür.

Qeyd edilən mövzunun praktik əhəmiyyətini mahiyyətcə şərh edən əsas məqam sosial qavrayışın emosional zəka ilə əlaqəsinin fəaliyyət şərtləri və təbiətindən asılıdır. Məlumdur ki, fəaliyyət qavrayışdan asılı olmayaraq dəyişir və bu prosesin iştirakçıları bir-birilərini qavrayaraq sosiallaşırlar. Emosional zəka isə, bu qavrama prosesinin təbiətini dəyişdirir. Yəni, qavrayanın yanaşma tərzi qeyd edilən fəaliyyətin gedişatını müəyyənləşdirir. Buradan belə bir nəticəyə gəlmək

mümkündür ki, emosional zəka sosial qavrayışın funksionallığına mühüm təsir göstərir və işləmə mexanizmlərini istiqamətləndirir.

**Qarşılıqlı təsirin emosional intellektlə əlaqəsinin təzahür xüsusiyyətləri**

Şəxsiyyətlərarası qarşılıqlı təsir sosial hərəkətverici qüvvə qismində insanların qarşılıqlı olaraq bir-birilərinə olan uyğunluq dərəcəsini müəyyənləşdirir. Belə ki, şəxslərarası münasibətlərdə hörmət və ehtiram hissi olduqca vacib yer tutur. ***İnsanların əksəriyyəti qeyd edilən normalara uyğun hərəkət etmədikdə isə şəxsiyyətlərarsı münasibətlərdə gərginlik yaranır.***

Şəxsiyyətlərarası münasibətlərdə qarşılıqlı təsir inkluziv münasibət tələb edir. Yəni, hər bir insan qarşısındakı insana qarşı rəftarında xüsusi diqqət nümayiş etdirməlidir. Məhz emosional intellektual səviyyəsi üstün olan insanlarda verilən qərarlar daha çox məntiqi xüsusiyyətlərə əsaslandığından onların qarşılıqlı reaksiyaları da bu zəkaya uyğun olaraq fəaliyyət göstərir.

Şəxsiyyətlərarası qarşılıqlı təsir həm də sosial qəbuletmədir. Yəni, sosial təəssürat müsbət olduğu halda qarşılıqlı təsir də tənzimləyici qüvvə olaraq fəaliyyət göstərir.

Qarşılıqlı təsir fəaliyyət istiqaməti olaraq əsas təkanverici qüvvədir və bir neçə taktik mərhələdən ibarətdir:

- Faktların aşkarlanması;
- Məlumatların mübadiləsi;
- Qərarların verilməsi [2].

Şəxsiyyətlərarası münasibətlərdə qarşılıqlı təsir düşündürücü və konstruktiv əhəmiyyət kəsb edir. Münasibətin qurulması, qorunub saxlanması, inkişafı və möhkəmləndirilməsi məhz qarşılıqlı təsir sahəsində mümkün olur. Emosional zəka (və ya intellekt) sosial qavrayışda olduğu kimi qarşılıqlı təsirin də təsir gücünü artırır və onun dayanıqlığını qoruyur.

**Emosional intellekt anlayışı haqqında məlumat**

Emosional zəka (emosional intellekt) konsepsiyası psixologiya ilə bərabər olduğu kimi sosial elmlərin də tədqiqat obyektlərindən biridir. Emosional zəkanın daha dərindən öyrənilməsi Daniel Qolemanın (1995-ci il) *"Emotional intelligence"* adlı kitabı nəşr olunduqdan sonra mümkün olmuşdur [9].

Qolemanın adı çəkilən kitabında emosinal zəkanın idrak, təfəkkür və sosioloji cəhətlər ilə əlaqəsi geniş şəkildə şərh olunur. Emosinal zəkanın olub

və ya olmaması insanın səhhəti və şəxsi həyatı ilə bərabər işgüzar fəaliyyətində də müvafiq nəticələrini göstərir. D.Qolemana görə "emosional zəka" insana öz gücün müəyyən iş üzərində səfərbər etmək, qarşıya çıxan maneələrin öhdəsindən gəlmək, çətinlikləri yüksək motivasiya ilə dəf etmək, planların reallaşdırılmasında çətinlikləri və qarşıda duran maneələri aradan qaldırmaq, digərlərinin hisslərinə qarşı hörmətlə yanaşmaq (empatiya), ümidlə yaşamaq və s. müsbət xarakterik xüsusiyyətləri ehtiva edir.

Zəka psixologiya elmində hər zaman geniş tədqiqat sahələrini əhatə edən bir mövzu olmuşdur və sosial qavrayışla sıx əlaqədədir. Emosional zəka emosiya və zehni fəaliyyətin birgə ifadəsi olduğundan insan İQ-nə də birbaşa təsir göstərir. İntellektual insanın sosial bacarıqları da inkişaf səviyyəsinə görə üstün xüsusiyyətlərlə fərqləndiyindən emosional zəkanın sosial qavrayışla birgə tədqiqi xüsusi maraq kəsb edir. Qeyd edilən məsələ ilə əlaqədar bir sıra tədqiqatlar aparılmış və müxtəlif fərziyyələr irəli sürülmüşdür. Məsələn, 2014-cü ildə "Forbes" jurnalında dərc olunan "Emotional Intelligence 2.0" başlıqlı məqalənin müəllifi Travis Bradberri qeyd edirdi: "Çalışdığımız bütün insanlar içərisində ən yaxşı göstəricisi olanların 90%-nin emosional zəkada da yüksək olduğunu gördük" [16].

Mövzu ilə əlaqədar bir sıra alimlərdən sitatlar da gətirmək olar. Məsələn, Aristotel deyirdi ki, *"Hər kəs əsəbiləşə və özündən çıxa bilər. Bunu etmək çox asandır. Ancaq doğru insana, doğru ölçüdə, doğru zamanda, doğru səbəbdən dolayı və doğru şəkildə əsəbiləşmək heç də asan deyil."*

Emosional zəka insanın özünü və başqalarını idarə etmə bacarığı da adlandırıla bilər. Düşüncə tərzi ilə seçilən insan şəxsiyyətlərarası münasibətlərdə də nümunəvi davranış nümayiş etdirəcəkdir. Emosional zəka fərdin həm özünün, həm də başqalarının emosiyalarını izləmək, onları müqayisə etmək və məlumatı düşüncə və davranışlarına yönləndirmək üçün istifadə edə bilmək bacarığını ehtiva edən bir sosial zəka növüdür. Bundan başqa emosional zəka, insanın öz duyğuları ilə bərabər zəkasını də idarə etməsini təmin edən mexanizmdir [16].

Emosional zəka anlayışının əsas komponentləri aşağıdakılardır:

1. Özünüdərk və ya insanın öz duyğularını müəyyənləşdirə bilməsi;
2. Duyğuların düzgün istiqamətləndirilməsi;
3. Duyğuların zaman və məkan qavrayışına uyğun lokallaşması;
4. Problemli situasiya yarandığı təqdirdə mövcud qabiliyyətlərin səmərəli şəkildə tətbiq edilməsi;
5. Duyğuların qarşılıqlı təsir gücünün tənzimlənməsi sayəsində digərlərinin də duyğularının idarə edilməsi [17];

**Emosional zəka səviyyəsi yüksək olan insanlarda sosial qavrayışın əsas xüsusiyyətləri**

Emosional zəka səviyyəsi yüksək olan şəxslərdə davranış xüsusiyyətləri də fərqli olur. Emosional zəka insan hissi ilə eyni məna kəsb etmir. Belə ki, "emosional insan" anlayışı ilə "həssas insan" ifadələri arasında müəyyən fərqlər mövcuddur. Emosional zəkaya sahib olan insanlar öz hisslərini düzgün şəkildə idarə və ifadə edə bilən insanlardır.

Emosional zəka bir sıra sosial, etik, emosional, əxlaqi və mənivi dəyərləri özündə birləşdirir. Emosional zəka özündə aşağıdakı xüsusiyyətləri də ehtiva edir:

- Özünü tanıma – duyğuların dərk olunması;
- Qarşındakını tanıma – empatiya;
- Motivasiya – daxili motivasiya;
- Öz gücünə inanma, daxili dünyası ilə ahəng içərisində yaşama;
- Müstəqil ola bilmə;
- Stresə davamlılıq;
- Dinləmək və ünsiyyət bacarığı;
- Sosial məsuliyyət;
- Problem həll edə bilmə bacarığı;
- Özünü aktuallaşdırma;
- Optimist – nikbin olma;
- İradəli olma;
- Elastiklik – uyğunlaşma bacarığı (adaptasiya);
- Xoşbəxtliyə meyllilik [16].

Cəmiyyətdə xarakterik xüsusiyyətlərinə görə xüsusilə seçilən insanlar güclü emosional zəkaya sahib olan insanlardır, çünki onlar şəxsiyyətlərarası münasibətlərdə və şəxsi davranışlarındakı çatışmayan cəhətləri dərhal aşkarlaya və zəruri korreksiya işlərini həyata keçirərək özünütərbiyə edə bilirlər. Bu cür insanların aid olduğu qarşılıqlı təsir prosesi də olduqca keyfiyyətli çalarlar kəsb edir. Belə ki, bu cür insanlarda sosial həssaslıq, empatiya (başqalarının dərdinə şərik çıxmaq), başqalarının düşüncələrinə hörmətlə yanaşmaq, buna ehtiyacı olan insanları ruhlandırmaq və s. xüsusiyyətlər olduğundan onlarla ünsiyyət hər zaman arzuolunan olur. Onlar digərləri ilə zaman və məkan qavrayışlarına uyğun olaraq münasibət qururlar. Emosional zəkası yüksək olan insanlar özləri ilə bərabər digərlərini də motivasiya etmək qabiliyyətinə malik olurlar və əsla ruhdan düşmürlər.




Emosional zəkanın işləmə mexanizmi sağdakı şəkildə aydın formada şərh edilmişdir. Şəkildə, *"Emosional beyin"* və *"Düşünən beyin"* anlayışlarına nəzər salmaq üçün şəkil nümunəsinə keçid alaq [13]:

Şəkil 1. "*Emosional beyin*" (sağ tərəf) və "*Düşünən beyin*" (sol tərəf)

| **Emosional beyin** | **Düşünən beyin** |
|---|---|
| - Sürətli düşünür<br>- Duyğuları nizamlayır<br>- Digərlərinin də duyğularını idarə edir<br>- Sosial həssaslıq yüksək inkişaf etmiş olur<br>- Fikiləri cilovlayır | - Rasional qərar verir<br>- Yavaş və analitik hərəkət edir<br>- Zəif sosiallaşır<br>- Duyğuları zəif idarə edir və nizamlayır<br>- Dolayı yolla hərəkət etmir |

Emosional zəka sayəsində problemli situasiyadan daha sürətli və daha rahatlıqla qurtulmaq mümkündür [13].

**Emosional zəka sosial qavrayışın əsas göstəricisi kimi**

Emosional zəka və sosial qavrayışın fəaliyyət zamanı özünü biruzə verən müvafiq əlaqəsi cari vəziyyətə uyğun qiymətləndirilir və bu proses əvvəlcədən planlaşdırıla bilməz. Belə ki, emosional zəkanın sosial qavrayışa göstərdiyi təsir duyğular vasitəsilə ölçülür.

Emosional zəkaya malik olan insanlar həm də intellektual cəhətdən inkişaf etmiş olur və daha adekvat fərdi-psixoloji xüsusiyyətlərilə fərqlənir. Sosial qavrayışın emosional zəka fonunda inkişaf etdirilməsi üçün bəzi faydalı vasitələr əldə edilmişdir ki, onlar aşağıdakılardır:

1. Duyğuların tanınması – emosiyaların tanınması sosial qavrayışda olduğu kimi emosional zəka üçün də zəruridir. İnsanın özünə etiraf etmədiyi və ya etməkdə çətinlik çəkdiyi bəzi duyğuları da olur ki, onların güclü və zəif tərəfləri aşkarlanmalıdır. Bəzi hisslərin isə inkişaf etdirilməsinə ehtiyac duyulur. Duyğuların tanınması hansı formada həyata keçirilir və nə deməkdir? Əsəbi halda olan insan aqressiv, impulsiv və düşünülməmiş reaksiyalar nümayiş etdirir. Sabit insan isə sakit, balanslı, tutarlı və stabil əhvalda olur. Qeyd edilənlər duyğuların tanınması istiqamətində atılan ilk addım hesab oluna bilər.

2. Duyğuların olduğu kimi qəbul edilməsi – insanlar xarakterik xüsusiyyətlərinə görə fərqli olur və bu birinin digərindən "pis" və ya "yaxşı" insan olması demək deyildir. Digər insanların duyğularını mümkün qədər tez tanımaq onlarla daha tez ünsiyyət qurulmasına və onların düzgün qavranılmasına şərait yaradır. Bu yolla emosinal zəka daha tez inkişaf edir. Emosional zəkası inkişaf edən insan sosial qavrayışda qərəzli münasibət göstərmir və digərlərini özünə təhlükə olaraq görmür. Bu cür insanlarla ünsiyyət və münasibət kifayət qədər keyfiyyətli olur və qarşılıqlı olaraq informasiya mübadiləsi həyata keçir.

İnsan öz hisslərini cilovlamağı və doğru zamanda büruzə verməyi bacarmalıdır.

3. Emosiyaların yüklədiyi məsuliyyətin fərqinə varmaq – duyğunun hiss edilməsi insana məsuliyyət hissi də aşılayır. Bu məsuliyyət duyğunun səbəb olduğu davranışdan və onun nəticələrindən meydana gəlir. Məsələn, emosional zəkası zəif inkişaf edən insanlarda sosial qavrayış zamanı müəyyən problemlər özünü büruzə verir və bu cür insanlarda *xroniki peşmanlıq* dominantlıq təşkil edir.

Sosial qavrayış həm də müdafiə mexanizmi rolunu oynayır. Bu müdafiə mexanizmi ünsiyyət prosesində formalaşır və fəaliyyətin zəruri qanunauyğunluqlarına xidmət edir.

## Nəticə

Tədqiqat zamanı əldə edilən nəticələr daha çox nəzəri xarakter daşıyır. Həyat təcrübəsi göstərir ki, insanın təkmilləşməsi və şəxsiyyət olaraq formalaşmasının əsas ünsürlərindən biri də xətalarından düzgün nəticə çıxarması ilə əlaqədardır. Bu prosesi sürətləndirən isə təbii ki, öyrənmə meyilləri, maariflənmə, düzgün insanlarla ünsiyyət və s. xüsusiyyətlərdən asılıdır. Sosial qavrayışla qarşılıqlı təsirin emosinal zəka ilə birgə öyrənilməsi və tədqiqi onu deməyə əsas verir ki, düşüncə tərzi insanın həyata yanaşmasını tənzimləyir. Düşüncə tərzinin formalaşması isə zəka vasitəsilə duyğuların tərbiyə edilməsi ilə şərtlənir. Bu baxımdan sosial qavrayışın və qarşılıqlı təsirin normal fəaliyyətinə təsir edən ən əsas faktorlardan biri də şüur hesab olunur.

Sosial qavrayışın işləmə mexanizmləri emosional zəkanın işləmə mexanizmləri ilə demək olar ki, eynidir. Belə ki, insanların qavranılması əsasən sosial qavrayışın əsas vasitəsi olan fiziki simanın tanınması ilə başlayır və əldə edilən məlumatların insan beynində şərh edilməsi ilə davam edir. Məhz bu baxımdan qeyd edə bilərik ki, emosional intellekt sosial qavrayışın və qarşılıqlı təsirin hərəkətverici qüvvəsi kimi fəaliyyət göstərir. Bundan başqa, ünsiyyət zamanı və ümumilikdə yaranan problemləri həll edə bilmək və hər zaman bir çıxış yolu tapmaq bacarığı emosional zəkanın qazandırdığı müstəsna bacarıq hesab oluna bilər. Bu bacarıqları vahid bir sistem altında birləşdirməklə inkişaf etdirmək də mümkündür. İnsan qarşılaşdığı problemlərdən çəkinməməli və onları özünü isbat etmək üçün bir fürsət olaraq dəyərləndirməlidir. Məhz belə olduğu təqdirdə, onları həll edə bilməmək üçün heç bir əsas qalmaz. Emosional zəka – sağlam tənqid edə bilmək və tənqidə açıq olmaq qabiliyyəti də adlandırıla bilər. Emosional zəkanın sosial qavrayış və qarşılıqlı təsirlə başlıca əlaqəsi bir-birilə dinamik şəkildə səsləşən insanı keyfiyyətlərin informasiya mübadiləsi zamanı ötürülməsi və məntiqi təəssüratların yaradılması ilə şərtlənir.

## *Ədəbiyyat siyahısı*
## *(References)*

1. Dökmen Ü., *Okuma becerisi, ilgisi ve alışkanlığı üzerine psiko-sosyal araştırma*., M.E.B. Yayınları, No.2531
2. Ginott D.H., Goddgard V.V. *Anne, baba və çocuk arasında iletişim*. 2019
3. Qoleman D. Emotional intelligence. Nyu-York – 2005., X nəşr;
4. Maboçoğlu F., Duygusal zeka ve duygusal zekanin gelişimine katkıda bulunan etkenler. Yüksek lisans tezisi, Ankara – 2006;
5. Köknel Ö., İnsanı anlamak. Altın kitaplar yayınevi., İstanbul – 1986, s.287
6. Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt 16, Sayı 1, 2007, s.231-252
7. Salovey P., Mayer J.D. Emotional intelligence. Imagination, Cognition and Personality. (1990).
8. Yeşilyaprak B., "Üniversite gençliğinin psikolojik sorunları". Psikoloji dergisi, İstanbul – 1986. XX nəşr;

**Elektron mənbələr**

9. http://pcc.az/blog/?p=6000. Emosional intellekt uğur mənbəyi kimi.
10. https://baxili.ru/az/business-ideas/obshchenie-kak-deyatelnost-psihologiya-obshcheniya-vidy-obshcheniya-delovoe.html
11. https://www.linkedin.com/pulse/emotional-intelligence-balance-between-rational-brain-jyoti-sharma/
12. http://alpha.az/works/emosional-zeka/
13. https://www.psychologytoday.com/intl/basics/emotional-intelligence
14. https://azinka.az/emosional-z%C9%99ka-isl%C9%99m%C9%99-mexanizmi-v%C9%99-inkisaf-etdirilm%C9%99si/
15. https://quizlet.com/453915456/six-interpersonal-influence-tactics-for-leaders-ch11-flash-cards/
16. https://az.wikipedia.org/wiki/Emosional_z%C9%99ka
17. https://kayzen.az/blog/psixologiya/8062/duy%C4%9Fular.html

***Zeynab Hajamova***

## ***Socio-psychological analysis of the relationship between social perception and interaction with emotional intelligence***

### ***Abstract***

In interpersonal relationships, social perception is perceived as the understanding and evaluation of one person by another. One of the most important features of interpersonal social perception is the study of a person's social qualities

in the context of relationships with other people. Interpersonal social perception also plays the role of a kind of social assessment. Social perception not only reflects the existing interpersonal relationships, but also regulates the changes that may occur in these relationships. When such a regulatory effect is combined with the capabilities of the intellectual level, the positive perspectives of perceptual actions manifest themselves. In addition, such social perceptions take shape in accordance with the necessary conditions and responsibilities in interpersonal relationships.

Interpersonal social perception is structurally reminiscent of a three-tiered structure. This structure is *the general content of interpersonal social perception, the object of social perception* and *the process of interpersonal perception itself as a process*. These components themselves cover two stages: *the physical* and *social stages*.

Social stage – external criteria (role expectations, interpersonal relationships themselves) and internal criteria – (personality tendencies, human needs, motives, etc.). In addition, social perception has *emotional* and *mental* aspects that act when a person judges or makes decisions. The interaction of social perception with emotional intelligence also explains fundamentally different aspects of activity. People's perception is the result of a selective attitude. This selectivity is both stable, affirmative and is closely related to a person's inner world. From this point of view, the influence of human emotional intelligence on social perception covers a very wide range.

***Key words:*** social perception; emotional intellect; interpersonal influence; interpersonal relatives; mechanism.

***Зейнаб Гаджамова***

***Социально-психологический анализ взаимосвязи социального восприятия и взаимодействия с эмоциональным интеллектом***

***(Резюме)***

В межличностных отношениях социальное восприятие воспринимается как понимание и оценка одного человека другим. Одной из важнейших особенностей межличностного социального восприятия является изучение социальных качеств человека в контексте взаимоотношений с другими людьми. Межличностное социальное восприятие также играет роль своего рода социальной оценки. Социальное восприятие не только отражает существующие межличностные отношения, но и регулирует изменения,

которые могут произойти в этих отношениях. Когда такой регулирующий эффект сочетается с возможностями интеллектуального уровня, проявляются положительные перспективы персептивных действий. Кроме того, такие социальные представления формируются в соответствии с необходимыми условиями и обязанностями в межличностных отношениях.

Межличностное социальное восприятие структурно напоминает трехуровневую структуру. Эта структура представляет собой *общее содержание межличностного социального восприятия*, *объект социального восприятия* и *сам процесс межличностного восприятия как процесс*. Сами эти компоненты охватывают две стадии: *физическую и социальную*.

*Внешние критерии* социальной стадии – (ролевые ожидания, сами межличностные отношения) и *внутренние критерии* – (личностные тенденции, человеческие потребности, мотивы и т. Д.). Кроме того, социальное восприятие имеет *эмоциональные* и *ментальные* аспекты, которые действуют, когда человек судит или принимает решения. Этот критерий считается основным признаком физического этапа. Взаимодействие социального восприятия с эмоциональным интеллектом также объясняет принципиально разные аспекты деятельности. Восприятие людей – результат избирательного отношения. Эта избирательность является стабильной , утвердительной и тесно связано с внутренним миром человека. С этой точки зрения влияние эмоционального интеллекта человека на социальное восприятие охватывает очень широкий диапазон.

***Ключевые слова:*** социальная перцепция; эмоциональный интеллект; межличностные отношения; механизм.

*Məqalə redaksiyaya daxil olmuşdur: 30.04.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 17.05.2021*
*Çapa qəbul edilmişdir: 10.06.2021*